# DÜNYA KİTABXANALARI



***Cəmiyyətin və şəxsiyyətin inkişafı, azadlığın təminatı insan mənəviyyatının mühüm amillərindən sayılır. Demokratik hüquqları reallaşdırmaq və ictimai həyatda fəal mövqe tutmaq üçün hər bir vətəndaş dolğun məlumata malik olmalıdır.***

Kitabxana vətəndaşların informasiya tələbatını ödəmək üçün dünya biliklərinə açılan pəncərə, fasiləsiz təhsilin inkişafında imkanlı zəmin yaradan, mədəni dəyərlərin mühafizəsini təmin edən və nəsillərdən- nəsillərə çatdıran bir elm müəssisəsidir.

28 dekabr 1988 - ci ildə qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda kitabxana informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi müəyyənləşdirilir. Qanunda həmçinin müasir dövrdə kitabxanaların artan rolu, göstərilən istiqamətlərdə inkişafına zəruri dövlət qayğısı, gündəlik kitabxana işinin çox funksiyaya malik olması, sosial təminat məsələləri də təsbit olunmuşdur.

Beləliklə kitabxana kiçik mənada bitib-tükənməyən, hesaba gəlməyən informasiya sərvətini özündə cəmləşdirməklə yanaşı, insanların məlumat bazasının zənginləşdirilməsinə və elmi- dünyagörüşünün kamilləşməsinə, cəmiyyətin maariflənməsinə xidmət göstərir.

Kitabxana sözü Yunan dilindən götürülmüş və hərfi mənası "biblion" - kitab, "theks" - qorumaq, mühafizə etmək kimi ifadə olunur.

Kitabxanaların tarixi çox qədimdir. Tarixi qaynaqlara əsasən ilk kitabxanaların yaranma məkanı Şərq ölkələri hesab olunur. Hələ e.ə. 7- ci əsrin ortalarında Assuriya çarı Aşşurbanipalın Nineviya sarayında yazılı gil lövhələrin saxlanılması, firon II Ramzesin Luksors sarayında, Suriya, İraq və digər qədim dövlətlərdə ilk kitabxanaların olması haqqında məlumatlar mövcuddur.

Xalqların və ölkələrin tərəqqisi onların mövcud kitabxanaları və fondunun zənginliyi ilə bilavasitə əlaqədardır. Tarixdə möhtəşəm kitabxanaya malik olmayan böyük dövlətlər olmamış və olmayacaqdır. Ta qədim dövrlərdən indiyə qədər bu aksioma özünün təsdiqini saxlamışdır.

Məhz buna görə də "Dünya kitabxanaları" rubrikasına müraciət etməyimiz təsadüfdən irəli gəlmir. İstər kütləvi oxucuların və istərsə də mütəxəssislərin məlumat kasadlığını nəzərə alaraq, bu sahənin qismən də olsa işıqlandırılmasına nail olmaq zərurətdən irəli gəlmişdir.

"Dünya kitabxanaları" rubrikasında açıqlanan materiallara ilk tarixi nəzər qədim Misir və onun möhtəşəm İskəndəriyyə kitabxanası ilə başlanır. Çünki, İskəndəriyyə kitabxanası bir çox xalqların ilk yazılı abidələri genefondunu özündə toplamış, sonralar tarixin səhnəsindən silinib getmiş və XXI əsrin əvvəllərində yenidən fəaliyyətə başlamış, dünyanın ən möhtəşəm kitabxanalarından sayılır.

## Misir Ərəb Respublikası

Misir dünyanın ən erkən mədəniyyət mərkəzlərindəndir. Misirlilərin müxtəlif sahələrə aid bilikləri antik elmin, həmçinin Avropa elminin inkişafına mühüm təsir göstərmişdir. Yunanlar həmişə Misirə qədim və müdrik bir ölkə kimi baxmış və misirliləri öz müəllimləri hesab etmişlər.

Müasir Misir Ərəb Respublikası Afrikanın şimal- şərqində və qismən Asiyanın cənub- qərbində yerləşir.

Ərazisi: 1001450 kv. km.

Əhalisi: 67, 27 mln. nəfər.

Milli tərkib: misirlilər (90%), bədəvilər, yunanlar, suriyalılar və s.

Rəsmi dövlət dili ərəb dilidir.

İnzibati cəhətdən 26 qubernatorluğa (mühafazaya) bölünür.

Ərazisində nadir memarlıq nümunələrinin olduğuna görə ölkəyə turist axını ildən- ilə artır. Hətta onu istila edən fatehlər də ölkənin gözəlliyinə etinasızlıq göstərməmişlər. Dahi İsgəndər ona İskəndəriyyə şəhərini hədiyyə etmiş, Napoleon isə ölkəyə yürüşü zamanı əsgərlərə müraciət edərək demişdir: "Əsgərlər, qırx əsr tarixə malik bu ehramların əzəmətli vüqarı Sizə yönəlmişdir. "

Beləliklə Misir qədim mədəniyyətin ən ali daşıyıcılarından sayılır. Hələ bir çox Avropa xalqlarının əcdadları mağaralarda yaşadığı dövrdə Misir özünün güclü dövlət quruluşu, möhtəşəm tarixi abidələri, elm və təhsilin, kənd təsərrüfatının, səhiyyənin inkişafına görə ən yüksək mərhələsinə çatmışdır.

## İskəndəriyyə kitabxanası

İskəndəriyyə kitabxanasının əsası bizim eradan əvvəl 3-cü əsrdə I Ptolemeylərin dövründə qoyulmuşdur. Toplanmış kitab fondu həmin dövrdə 700 min nüsxədən ibarət idi. Elmi mərkəz kimi fəaliyyət göstərən bu kitabxanada Eratosfen, Zenodot, Aristarx Samosskiy, Kallimax və digər məşhur tarixi şəxslər çalışmışdır. Kitabxanada həmçinin alimləri və tədqiqatçıları maraqlandıran bütün əsərlərin surətləri də saxlanılırdı. Kitabxanada yüzlərlə mirzələr lülə halında bükülmüş çap məhsullarını çeşidləməklə və onların qeydiyyatını aparmaqla məşğul idi. İskəndəriyyə kitabxanası özünün elmi potensialına, nadir kitab fonduna və bir sıra digər parametrlərə görə dünyanın yeddi möcüzəsinə daxil edilmişdir.

Kitabxanaya ilkin ziyan b. e.ə. 47- ci ildə İskəndəriyyə müharibəsi zamanı baş vermiş yanğın nəticəsində dəymişdi. Ancaq sonralar Kleopatranın çarlığı dövründə Sezardan Perqament kitabxanasının hədiyyə almaqla kitab fondu yenidən bərpa olunaraq özünün möhtəşəm adını qoruya bilmişdi. Bizim eranın 391-ci ilində nadir əlyazmaların bir hissəsi xristian- fanatlar tərəfindən məhv edilmiş, kitabxananın vahid məqsədli fondu isə 7-8-ci əsrlərdə ərəblərin hökmranlığı dövründə tamamilə məhv olmuşdur.

Tarixi qaynaqlara istinad edərək qeyd etmək lazımdır ki, İskəndəriyyə kitabxanası daha çox antik kitabxana kimi məş-

hur olmuşdur. Kitabxana antik dünyanın və İskəndəriyyə museyonun başlıca elmi mərkəzlərdən biri idi. Museyon (Muz məbədinin muzeyi) və kitabxana Misirdə b. e.ə. 3-cü əsrdə yunan- makedoniya sülaləsinin hökmranlığı dövründə təşkil olunmuş və fəaliyyətə başlamışdır. Həmin dövrdə 500 min əlyazma fondda saxlanılırdı ki, onların içərisində Esxilin, Sofoklun, Evripidin və digərlərinin əsərlərini göstərmək olar.

Kitabxananın ilkin quruluşunun tərtibatçısı Afinada kitabxanaların tərtibatçısı kimi məşhur olan Demetri Falerski olmuşdur. Həm muzey və həm də kitabxana elmi- tədris müəssisəsi olub, ona Misir çarlarının təminatında olan ali kahin rəhbərlik edirdi. Kitabxananın filialı b. e.ə. 235- ci ildə III Ptolemey tərəfindən Serapisa məbədində təşkil edilmiş, əsas kitabxana isə Bruxeyon məhəlləsində tikilmiş sarayın ətrafında yerləşirdi. Kitabxana əsasən yunanlara məxsus olub, antik müəlliflərin yazdığına görə digər dillərdən yunan dilinə tərcümə edilmiş əlyazmalar daxil idi. Hazırda bizə gəlib çatan "Septuaqinta" adlı tərcümə edilmiş bir kitabdır. Uzun müddət kitabxananın mühafizəsinə məşhur alim Kallimax (b. e.ə. 3-cü əsr) rəhbərlik etmiş və o, kitabxanada olan əlyazmaların müfəssəl siyahısını tərtib etmişdir. Hazırda əhəmiyyətini itirmiş bu iş Vizantiya dövründə yunan ədəbiyyatı üzrə məlumat nəşrinin hazırlanmasında çox böyük mahiyyət kəsb etmişdir. Kallimaxdan sonra kitabxanaya məşhur coğrafiyaşünas və riyaziyyatçı Eratosfen (b. e.ə. 3-cü əsrin sonu 2-ci əsrin əvvəlləri) rəhbərlik etmişdir. O, İskəndəriyyəyə IV Ptolemeyin dəvəti ilə gəlmiş varisin tərbiyəsi ilə məşğul olumuş və eyni zamanda hər iki vəzifəni icra etmişdir. Kitabxanada o dövrün məşhur filosofları, şairləri, alimləri çalışırdı və onlardan Evklidi, Arximedi və Platonu göstərmək olar. Kitabxananın nəşriyyat planına əsasən əsərlərin üzünün köçürülməsi və siyahıya alınması, yunan müəlliflərinin əsərlərinin xülassəsinin hazırlanması, əlyazmaların seksiyalara ayrılması və s. işlərin görülməsi nəzərdə tutulurdu.

Roma imperatoru I Feodiseyin (346- 395- ci illər) hakimiyyəti dövründə xristianlıq hakim dinə çevrildi və bütpərəst tərəfdarları təqib olunmağa başladı. Onun dövründə, Olimpiya oyunları ləğv edildi, çoxlu məbədlər və İskəndəriyyə kitabxanası yandırıldı.

Göründüyü kimi qədim kitabxanalardan ən böyüyü və möhtəşəmi İskəndəriyyə kitabxanası olmuşdur. Dahi sərkərdə Makedoniyalı İskəndərin vəfatından sonra onun yaxın silahdaşı Ptolemey Misirin çarı olur və İskəndəriyyə şəhərini ölkənin paytaxtı elan edir. Öz dövlətinin şöhrətini qaldırmaq üçün Ptolemey alimləri, şairləri və rəssamları Misirə dəvət edir. II Ptolemeyin çarlığı dövründə kitabxananın fondunun zənginləşdirilməsi üçün xeyli iş görülmüşdür. O, dünyanın bir çox ölkələrinə xüsusi səfirlər göndərir və onlara qiymətli əsərlərin əldə edilməsi tapşırığını verir. Demetrinin məsləhəti ilə o, yunan dünyasında ən böyük kitabxana olan Afinadakı "Likeya" kitabxanasını satın alaraq İskəndəriyyəyə gətirmişdi. Ancaq Ptolemeylərin iki nəsli dövründə İskəndəriyyə kitabxanasının fondu yarım milyon nüsxəyə çatmış, iki yüz ildən sonra 700 min nüsxə olmuşdur. Burada antik sivilizasiyanın yaratdığı bütün maraqlı əsərlər toplanmışdı. Şərq dillərində də əsərlər fondda öz əksini tapmışdı. Kitabxana binası bir neçə geniş otaqlardan ibarət idi. Əlyazmalar bir qayda olaraq üfiqi rəflərdə yerləşdirilirdi. Kitabxanaya çar tərəfindən təyin olunmuş baş kahin və kitabxanaçı rəhbərlik edirdi. Kitabxanaçı vəzifəsi ən müqəddəs vəzifə hesab olunurdu və bir qayda olaraq bu vəzifəyə tanınmış alimlər və şairlər təyin olunurdu. Bunların içərisində filoloq Zenodotu, şair- alim Kallimaxı, riyaziyyatçı və coğrafiyaşünas Eratosfeni və digərlərini göstərmək olar. Şair və alim kimi məşhurlaşmış Kallimax "Bütün sahələrdə şöhrət qazanmış maarifçi alimlərin əsərləri" haqqında kataloq tərtib etmişdi. Kataloq 120 cilddən ibarət idi. Kallimax özündən sonra tarixə, qrammatikaya, poeziyaya və s. sahələrə aid 800- ə yaxın əsər saxlamışdır ki, bunlar da poeziyada İskəndəriyyə istiqaməti adlandırılırdı. Müasir dövrünün nəticələrinə istinad edərək demək lazımdır ki, onun tərtib etdiyi bu əsərlər biblioqrafiya elminin əsasını təşkil etmiş və özü də biblioqrafiyanın yaradıcılarından biri olmuşdur. Çox təəssüflər olsun ki, Kallimaxın tərtib etdiyi kataloq məhv olmuşdur.

Məlum olduğu kimi İskəndəriyyə kitabxanasında çalışan kitabxanaçıların köməkçiləri də olmuşdur. Onlar yeni əlyazmaların hesabatını aparır, digərləri isə çap əsərlərinin mühafizəsi ilə məşğul olurdu. İskəndəriyyə kitabxanasında dahi Evklid öz əsərlərini yazmış, Qipparx triqonometriyanı kəşf etmiş, filosof Arximed və astronom Aristarx kimi dahilər çalışmışdır. .

Beləliklə, qədim dahi kitabxana haqqında müfəzzəl məlumatlar bizə gəlib çatmışdır. Bunlar aşağıdakılardır:

1. Kitabxananın yaranma tarixi;
2. Kitabxananın təşkilatçıları;
3. Kitabxanada mühafizə olunan əlyazmaların sayı;
4. Orada çalışan kitabxanaçıların sayı və bəzi oxucular haqqında məlumat.

İskəndəriyyə kitabxanası həmin dövrün böyük kəşflərinin, elmi yeniliklərin, fəlsəfi traktların məkanı kimi də ad çıxarmışdı. İskəndəriyyə kitabxanasında Arximed çalışmış, dahi Evklid özünün "Başlanğıc" və "Hadisələr" adlı fəlsəfi əsərlərini yazmış, Qipparx triqonometriyanı kəşf etmişdir. Elmi işlərin aparılması üçün əsasən filoloqlar cəlb olunurdu. Onlar həqiqi, orjinal əsərləri saxta əsərlərdən ayırır, yazılı mətnlərin elmi dəyərini qiymətləndirirdi. Məsələn, filoloq Zenodot Homerin poemasının həqiqi mətnini təyin etməyə çalışmışdı. Antik dövrün Koperniki kimi ad çıxarmış Aristarx Samosskiy Yerin kürə formasında olduğunu təsdiq etmək üçün uzun müddət kitabxanada elmi araşdırmalar aparmışdır. Tədqiqatçı- alim Kanon özünün yeddi kitabdan ibarət "Astronomiya" əsərinin yazılmasında məhz bu kitabxanaya borcludur. Arximed onu dövrünün ən böyük astronomu adlandırmışdı.

Kitabxana haqqında bəzi rəvayətlər də yaranmışdır. Onlardan birində deyilir ki, kikitabxananın məhv olmasında günahkar məhz Roma imperatoru Yuli Sezar olmuşdur. Həqiqətən, Yuli Sezar b. e. 48-47- ci illərdə Kleopatra və onun qardaşı XIII Ptolemey arasında baş vermiş hakimiyyət qarşıdurmasını aradan qaldırmaq üçün Misirdə müharibə aparmış və birincinin hakimiyyətini reallaşdırmaq məqsədilə sülalə arasında davam edən münaqişəyə müdaxilə etmişdi. Hərbi əməliyyatlar nəticəsində kitabxanada yanğın baş vermiş və kitabların bir hissəsi yanıb kül olmuşdur. Sezarın müdaxiləsi nəticəsində Kleopatra misirin taxt- tacına sahib oldu. Düzdür, müharibənin vurduğu ziyanlar kitabxanadan da yan keçə bilmədi. Kitabxana xəzinəsi sayılan nadir əlyazmaların bir hissəsi itirilsə də, Mark Antoni digər nəhəng kitabxananın hesabına İskəndəriyyə kitabxanasının möhtəşəm fondunu daha da zənginləşdirdi.



Qədim Perqame şəhərinin kitabxanasının fondu İskəndəriyyəyə gətirildi.

Rəvayətin bir variantı da ondan ibarətdir ki, xəttatlar gətirilən əlyazmaların üzünü çıxartdıqdan sonra əsas nüsxələr yenidən Perqame kitabxanasına qaytarılmalı idi. Kleopatranın uzaqgörənliyi və siyasi nüfuzu nəticəsində gətirilən əlyazma kitabların həqiqi orjinalları İskəndəriyyə kitabxanasında saxlanılmış və üzü köçürülən nüsxələr isə vətəninə təhvil verilmişdi.

Digər rəvayətə görə Sezar İskəndəriyyə kitabxanasını Roma şəhərinə gətirməyə cəhd etmiş və Xalq arasında yayılmış digər əfsanəyə görə ərəblərin Misirə yürüşü zamanı Xəlifə Ömər İskəndəriyyə kitabxanasını yandırmaq istəmişdi. Xəlifə Ömər kitabxananın yandırılması səbəbini bu cür izah etmişdi: "Əgər bu kitablarda həkk olunmuş fikirlər Quranda olduğu kimi eynilik təşkil edirsə onda həmin kitablar ictimaiyyət üçün yararsızdır. Əgər kitablarda müxtəlif ideyalar mövcuddursa, onda onlar ictimaiyyət üçün çox zərərlidir. Məntiqə görə bu və ya digər nəticəyə istinadən onlar yandırılmalıdır".

Kitabxana həqiqətən bizim eranın 273-cü ilində Romanın Misir çarına qarşı apardığı müharibə zamanı yandırıldı. Beləliklə "İnsan yaddaşının xəzinəsi" adlandırılan İskəndəriyyə kitabxanasının tarixi fəaliyyəti sükuta uğradı.

Mətn yazılarında mühafizə olunan dünyanın əzəmətli xəzinəsi olan İskəndəriyyə kitabxanası nəinki özünün kitab fonduna görə, hətta parlaq elm xadimləri ilə də fəxr edirdi. Onlar bütün elm sahələrinə fanatikcəsinə bağlı olmuşdu. Kitabxana əvvəlcə qeyd etdiyimiz kimi, təkcə yanğın nəticəsində deyil, əsrlər boyu davam edən tarixin tənəzzülü kimi iflasa uğarmışdır. Bizim eradan əvvəl III əsrdə ellinlər (qədim yunanların adı) üçün kitabların kolleksiyasını təşkil etmək və onları doğma dilinə tərcümə etməklə mədəni-siyasi kəşfiyyat aparmağın mühüm əhəmiyyəti birincilər siyahısına daxil edilə bilməzdi. Çünki xettlərin və assuriyalıların qədim çarlığı döründə müxtəlif dillərin mətnlərinə aid əlyazmalar mövcud olmuşdur. Hər halda İskəndəriyyə kitabxanasının yaradıcıları antik dövrün intellektual fədailəri kimi qiymətləndirilməlidir. Kitaba olan ehtiras şüarı belə səslənirdi: "Kitab - insanın mənəvi ehtirasıdır, ondan kolleksiya düzəltmək isə xəstəlikdir". Bu təfəkkür, fikir forması ilk dəfə İskəndəriyyə şəhərində doğulmuşdur. III Ptolemeyin çarlığı dövründə insanın mənəvi ehtirası olan kitaba münasibət birə on qat artdı. Məhz İskəndəriyyə kitabxanasının ilkin nəhəng daşını qoyan, kitablara qarşı olan ehtirasını söndürməyə çalışan tarixi şəxslərdən ən ilkini III Ptolemeyi adlandırmaq olar. Bu sahədə onun xidmətləri əvəzsizdir. O, bütün sivilizasiyalı ölkələrə qiymətli kitabların surətlərinin çıxarılması üçün müraciət etmişdir. Onun bu ideyası kitabxana fondunun yetərincə çiçəklənməsinə xidmət etmişdi. Çarın istəyini nəzərə alaraq gömrük məmurları İskəndəriyyə limanına yan alan gəmiləri orada olan kitabların üzünü çıxartmaq bəhanəsi ilə müsadirə edirdi. Çox zaman kitab sahibləri həqiqi əsl nümunələri geri ala bilmədiyi üçün, onların surətləri ilə razılaşmağa məcbur idi. Gəmilərdən daxil olan nüsxələr kitabxana anbarına göndərilir və kataloqlarda "Gəmi kitabxanası" rubrikasında əks olunurdu. Nəticədə İskəndəriyyə kitabxanasına tibbə dair ədəbiyyat və Hippokratın "İnfeksiya xəstəlikləri" adlı çox qiymətli əsərlər daxil oldu. Kitabxanada çalışan yüzlərlə elm adamları öz əsərlərini çarın fərmanına görə ciddi sirr kimi mühafizə olunan papirus lövhələrdə yazırdı. İskəndəriyyə kitabxanasının şan-şöhrətini qorumaq və Gənc Perqame kitabxanasını boğmaq məqsədi ilə çar Misirdən papirusun ixracına qadağa qoymuşdu. Kitabxanaya işləməyə dəvət olunan işçilərə və alimlərə geniş imtiyazlar: çar məhəlləsində yaşamaq, çar xəzinəsi hesabına ərzaqla təchizat, vergilərdən azad etmək, yüksək məvacib və hətta çarın himayəçiliyi verilmişdi.

Bizə çatan məlumatlara görə kitabxanada çarın iştirakı ilə ədəbiyyat və fəlsəfi problemlərə aid simpoziumlar da keçirilirdi. İskəndəriyyə kitabxanasını həmçinin müasir milli kitabxana modelinin antik sələfi kimi xarakterizə etmək olar.

İskəndəriyyə kitabxanası özünün böyük kitab həcminə görə deyil, həm ədəbiyyatşünaslıq, kataloqlaşdırma və biblioqrafiya üzrə də antik mərkəz kimi böyük əhəmiyyətə malik olmuşdur. Kitabxana maksimal həcmdə yunan və xarici dillərdə mühüm ədəbiyyatları əldə etməklə bərabər, həmçinin nəşrlərin əslinə uyğunluğunu da üzə çıxarmaq vəzifəsini də aparırdı. Kallimax əsərlərin adlarını elmi və ədəbi kateqoriyalara görə sistemləşdirirdi. O, ədəbiyyatı poeziya və nəsr hissələrə bölmüş, sonra poeziyanı epik, lirika, faciə digər janrlara, nəsri isə tarixə ayırmışdır. Ayrı-ayrı müəllifləri soy əlamətlərə görə əlifba qaydasında hesaba götürürdü. Kallimax hər bir müəllif haqqında qısa biblioqrafik məlumat verir, əlifba üzrə onun əsərlərinin siyahısını tərtib edir, şerlərin ümumi sətrini də göstərirdi. Onlar antik kitab təsviri nümunəsi kimi qalmaqdadır. Bürümə kitablar (lövhələr) mövzu sxemi üzrə rəflərə düzülürdü. Elmi-tədqiqat və kitabxana işi yeni konsepsiya istiqamətində uyğunlaşdırılmış, onların yerinə yetirdiyi vəzifələr bir-birini tamamlayırdı. Kitabların evə verilməsi qadağan idi. Sonrakı dövrlərin kitabxanalarından fərqli olaraq İskəndəriyyə kitabxanası ictimai xarakter daşımırdı. Onun istifadəsi ancaq Museyon üzvləri və çar ailəsi üçün nəzərdə tutulurdu. Alimlər və digər istifadəçilər üçün kitabxana-filialı xidmət göstərirdi. Nəhayət, kitabxana orijinal nəşrlərin qeyri-orijinal nəşrlərdən seçilib dəqiqləşdirilməsində, mətnlərin yazılmasında, onların şərhinin verilməsində və ümumiyyətlə ədəbiyyatşünaslığın inkişafında böyük rol oynamışdır. Sonralar kitabxanada mətnlərin müqayisəli-tarixi nöqteyi-nəzərindən öyrənilməsi də planlaşdırılmışdı. Ancaq nəzərdə tutulmuş bu ideya reallaşmadı. Çünki İskəndəriyyə kitabxanasının məhvə düçar olması buna imkan vermədi. Bu hadisə bütün mədəni dünya ictimaiyyəti tərəfindən bəşəriyyətin "kollektiv yaddaşının" iflasa uğraması kimi dəyərləndirildi.

**İskəndəriyyə kitabxansının yenidən bərpası dövrü**

1990-cı il fevralın 10-da Misir Ərəb Respublikasının prezidenti H. Mubarək İskəndəriyyə kitabxanasını yenidən bərpa etmək üçün "Asuan deklarasiyası" ilə bütün dünya ictimaiyyətinə müraciət qəbul etdi. İskəndəriyyə kitabxanasının bərpaetmə layihəsini həyata keçirmək vəzifəsini YUNESKO öz üzərinə götürdü. Elm və mədəniyyət sahəsində bu təşkilatın öhdəsinə götürdüyü həmin iş digərlərdən fərqli olaraq daha çox əhəmiyyət kəsb edirdi. Layihənin bərpasına həsr olunmuş bayram mərasimində bir çox dövlətlərin prezidentləri, tanınmış şəxslər və 27 ölkənin din xadimləri iştirak edirdi. Həmin mərasimdə qədim kitabxananın bərpa edilməsi üçün Ali Beynəlxalq komitə yaradıldı. Layihənin ümumi dəyəri 160 milyon dollar təşkil edirdi ki, onun 60 mln. dolları - İskəndəriyyə Uni-

versitetindən ayrılan torpaq sahəsinə (45 min kv. metr), 60 mln. dollar - binanın tikintisinə, 40 mln. dollar isə kitabxana avadanlıqları və çap məhsullarının alınmasına sərf edilməli idi. Tələb olunan digər xərclərin yığılması üçün YUNESKO dövlətlərdən, ictimai təşkilatlardan, müxtəlif şəxslərdən könüllü verilən ianələrin yığılmasını təşkil etdi. Ərəb dövlətindən daxil oalan ümumi vəsait 60 mln. dollar təşkil edirdi. Kitabxananın açılışı ərəfəsində fondun 200 min cildə çatdırılması qərara alındı. Gələcəkdə fondun artırılması nəzərdə tutulurdu. Bununla yanaşı, birinci mərhələdə MƏR Kitab Xidməti Deportamenti türk, ərəb, fars dillərində 67 min nüsxə nadir əlyazma əsərlərini fondda toplamalı idi. Bundan əlavə İskəndəriyyə kitabxanasının Yaxın Şərq, Aralıq dənizi hövzəsi və ümumiyyətlə insan sivilizasiyasının ən böyük elmi, mədəni mərkəzlərindən birinin olması planlaşdırılırdı. Gələcəkdə İskəndəriyyə kitabxanası ABŞ-ın Konqress, Parisin Milli, Böyük Britaniyanın Muzey kitabxanaları kimi zəngin elmi mərkəz olmalı və mütəxəssisləri qədim yunan, müsəlman və xristian elmi irsi ilə dolğun məlumatlandırmalı idi. Bununla əlaqədar tarixi elmi biliyə xüsusi diqqət yetirilməli idi. Yaxın gələcəkdə kitabxana özünün qarşısına qoyduğu vəzifəyə müvafiq müxtəlif elmi istiqamətlərə və digər mütəxəssislərə xidmət göstərəcək.

1600 il bundan əvvəl məhv olmuş məşhur İskəndəriyyə kitabxanası 2002- ci il oktyabrın 16- da yenidən fəaliyyətə başlamışdır. Kitabxananın nadir kitab fondu YUNESKO, Misir hökuməti, bir sıra Avropa və ərəb ölkələri, həmçinin Yaponiya dövlətinin birgə səyləri nəticəsində bərpa olundu. İskəndəriyyə şəhərinin dahi antik kitabxanasının yerləşdiyi və nadir manuskriptlərin (qədim əlyazmaları) qoruyub saxladığı ərazidə yeni bina inşa olundu. Kitabxana binasının layihəsini norveç arxitektorları tərtib etmişdir. Kitabxana kompleksi üç binadan ibarət olub, orada kitab fondu, oxu zalı, mətbuat mərkəzi, kartoqrafiya muzeyi, arxeologiya və xəttatlıq şöbələri yerləşdirilmişdir. 7 il davam edən tikinti işləri qurtarana qədər kitabxana fondunun formalaşması prosesinə başlanılmış və nəticədə nadir kitab nüsxələri, manuskriptlər, qədim xəritələr, həmçinin audio və video materiallar toplanaraq kitabxanaçıların ixtiyarına verilmişdir. 400 min nüsxədən ibarət kitab fondunu gələcəkdə 80 milyona çatdırmaq nəzərdə tutulur.

Misirin İskəndəriyyə şəhərində tikilən kitabxana özünün kitab fonduna görə keçmiş varisliyini təmin etməli, qədim elmi tədqiqatların şöhrətini müasir səviyyədə aparmağa səy göstərməlidir. Yeni kitabxana Şimal və Cənub, Şərq və Qərb arasında əlaqələndirici həlqə olmalı, həmçinin dünyanın nəhəng kitabxanaları kimi oxucu sorğularının dolğun təminatında geniş informasiya şəbəkəsinə malik olmalıdır. Misir dövləti kitabxananın fondunda bütün sivilizasiya dövrlərində insan nailiyyətlərinin əks olunmasına cəhd göstərir. Toplanmış və gələcəkdə toplanacaq cari nəşrlər keçmiş və indiki zaman üçün körpü, gələcək dövr üçün isə açılan pəncərə olmalıdır.

Kitabxana əməkdaşları fondun təkmilləşdirilməsi üçün xüsusi tədbirlər proqramı işləyib hazırlamışdır. Proqramın əsas məqsədi digər kitabxanalarda olmayan nadir nüsxələrin seçilməsi və əldə edilməsindən ibarətdir. Göstərilən nailiyyətlərin nəticəsi aşağıdakı tədbirlərin təminatını reallaşdırır:

- İstər kitab, istər dövri nəşrlər, əlyazma və ya onların surətlərini əldə etməklə Yaxın Şərqin keçmiş intellektual və mədəni irsini oxucuların ixtiyarına vermək;
- Qədim Misir sivilizasiyasının xüsusi nəşrlərini yığmaq (dövrlərdən asılı olmayaraq); bütün papirus nəşrlərini və həmçinin qədim Misir, qədim yunan, latın, qədim ərəb dillərində olan yazılı nümunələri araşdırıb toplamaq;
- İslam dünyasının (ərəb, türk, fars, ivrit, assuriya və digər şərq dillərində) intellektual nailiyyətlərini özündə cəmləşdirən manuskriptlərin əsillərini (surətlərini) almaq;
- Ənənəvi yazılı nümunələrini özündə əks etdirən Afrika xalqlarının bütün qədim və müasir çap məhsullarını yığıb xüsusi fond kimi formalaşdırmaq və Afrika qitəsi istiqamətində tədqiqat işlərini təmayülləşdirmək;
- Yaxın Şərq regionunun ictimai və tibbi tarixə daha çox yaxınlığını nəzərə alaraq, həmin elmlərə aid tədqiqat işlərini toplamaq;
- Müasir elmi nailiyyətlərin geniş həcminə malik kitabxana təşkil etmək. Buna görə kitabxanada elm sahələrinə dair muzeylərin açılması da nəzərdə tutulur;
- Astronomiya və kartoqrafiyaya aid planetariya avadanlıqları ilə təchiz olunmuş muzey isə İskəndəriyyə kitabxanasının astronomiya və coğrafiya elmlərinin inkişafına verdiyi böyük qiymətin səmimi ifadəsidir;
- Tarixi yazılı abidələri və yazı ləvazimatlarını nümayiş etdirmək üçün salon;
- Müxtəlif otaqlar, lazer diskləri kitabxanası, audio-video materiallar, regionun diqqətəlayiq yerləri və mühüm tarixi şəxslərin foto-şəkil və mikrofiş arxivi;
- Fəlsəfə və elm tarixinə böyük töhfələr vermiş ən dahi şəxslərin adları həkk olunmuş şöhrət salonu.

Kitabxana aş- Şatbi-at rayonunda İskəndəriyyə Universitetinin humanitar fakültələrinin kompleksindən əks tərəfdə yerləşir. Binanın üz tərəfi as-Silsilya rayonunun Aralıq dənizinə baxır. Kitabxana kompleksi 1993-cü ildə arxeoloji qazıntılar zamanı Misir tarixinin yunan-rum dövrünə aid qədim çar sarayının aşkarlandığı yerdə ucalmışdır. Bundan 3-4 metr aralı dənizin sahil zolağı görünür. Beləliklə, kitabxana İskəndəriyyə limanının şərq hissəsinə xüsusi gözəllik verir. Bundan əlavə göstərilən kitabxana xidmətinin səviyyəsini yüksəltmək üçün 5 min kv. metr əraziyə malik konfrans-mərkəzi də fəaliyyət göstərir.

Dövrü biblioqrafik göstəricilərin sayı - 1500/4000;

Audio-video vasitələr - 10 min vahid;

Kompüter bankı və məlumat bazası, rabitə aparatları və İnternetə çıxış üçün rabitə;

Yeni kitabxana kompleksi - əsas kitabxana binasından, gənclər kitabxanasından, korlar üçün ktibaxanadan, elmlər, kalliqrafiya, kitabxana muzeyi, beynəlxalq elmi-tədqiqat informasiya institutu, bərpaetmə labioratoriyası, konfrans-mərkəz və nəşriyyat şöbəsindən ibarətdir. Yeni İskəndəriyyə kitabxanasının layihəsinin reallaşdırılmasında 46 dövlət və 6 beynəlxalq təşkilat fəaliyyət göstərmişdir.

***Məmməd Məmmədov,***
***Yaşar Qaralıyev,***
***M. F. Axundov adına***
***Milli kitabxananın***
***bölmə müdirləri***